HISTORY OF SCIENCE AND SCIENCE OF SCIENCE

**Pages / Səhifələr: 62-74**
https://doi.org/10.59849/2788-9831.2025.1.62

# Əlimərdan bəy Topçubaşovun elmi və diplomatik fəaliyyəti: hüquq elminin beynəlxalq təmsilçilikdə tətbiqi

*Alimardan bey Topchubashov's scientific and diplomatic activities: application of legal science in international representation*

**Məhin Ağaşirinova/ *Mehin Aghashirinova***
*College of Construction, Azerbaijan University of Architecture and Construction*
mehin.aghashirinova@azmiu.edu.az

**ORCID ID**:
0009-0009-7872-6200

**Daxil oldu**
***Received***: 22.04.2025

***Qəbul olundu***
***Accepted***: 29.04.2025

***Xülasə.*** Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) görkəmli siyasi və diplomatik xadimi Əlimərdan bəy Topçubaşovun elmi və diplomatik fəaliyyəti sistemli şəkildə təhlil olunur, eyni zamanda elmi ideyalarının praktik diplomatiyada tətbiqi araşdırılır. O, hüquqi bilikləri və elmi baxışları diplomatik fəaliyyətlə birləşdirərək milli maraqların beynəlxalq müdafiəsində mühüm rol oynamış seçkin dövlət xadimi olmuşdur. Topçubaşovun hüquq təhsili və publisistik fəaliyyəti onun diplomatik strategiyalarında hüquqi təfəkkürün əsas yer tutduğunu göstərir. Tədqiqatın da əsas məqsədi Əlimərdan bəyin hüquqi biliklərinin diplomatik qərarların formalaşmasına və beynəlxalq təmsilçilikdə roluna təsirini araşdırmaqdır. Paris Sülh Konfransındakı fəaliyyəti və Türk-İslam birliyi ideyasını beynəlxalq diplomatiyada hüquqi arqumentlərlə əsaslandırması onun hüquqi-elmi bazaya söykənən diplomatiya modelini formalaşdırdığını sübut edir. Məqalədə həmçinin Topçubaşovun elmi, publisistik və maarifçilik irsinin müasir hüquq və diplomatiya kontekstində əhəmiyyəti qiymətləndirilir, onun Türk-İslam birliyi konsepsiyasındakı yeri və bu ideyaların Azərbaycan diplomatik düşüncəsinə və müasir elmi yanaşmalara təsiri elmi əsaslarla təhlil edilir. Əlimərdan bəy Topçubaşovun fəaliyyəti yalnız bir dövrün tarixi təzahürü deyil, həm də müasir dövlətçilik və diplomatik düşüncə üçün dəyərli nəzəri örnəkdir.

**Açar sözlər:** Əlimərdan bəy Topçubaşov, diplomatiya, hüquq, Paris Sülh Konfransı, Türk-İslam birliyi, Azərbaycan Xalq Cümhuriyyəti

***Abstract.*** The article systematically analyzes the scientific and diplomatic activities of Alimardan bey Topchubashov, a prominent political and diplomatic figure of the Azerbaijan Democratic Republic (1918–1920), and examines the application of his scientific ideas in practical diplomacy. He was an outstanding statesman who played a vital role in the international defense of national interests by combining legal knowledge and scientific views with diplomatic activity. Topchubashov's legal education and journalistic activities show that legal thinking played a key role in his diplomatic strategies. The main purpose of the study is to investigate the impact of Alimardan bey's legal knowledge on the formation of diplomatic decisions and his role in international representation. His activities at the Paris Peace Conference and his substantiation of the idea of Turkic-Islamic unity in international diplomacy with legal arguments prove that he formed a model of diplomacy based on a legal and scientific basis. The article also assesses the importance of Topchubashov's scientific, journalistic and educational heritage in the context of modern law and diplomacy, his place in the concept of Turkish-Islamic unity and the impact of these ideas on Azerbaijani diplomatic thought and modern scientific approaches are analyzed on scientific grounds. Alimardan bey Topchubashov's

activities are not only a historical manifestation of an era, but also a valuable theoretical example for modern statehood and diplomatic thought.
***Keywords:*** Alimardan bey Topchubashov, diplomacy, law, Paris Peace Conference, Turkic-Islamic unity, Azerbaijan Democratic Republic

***Резюме.*** В статье системно анализируется научная и дипломатическая деятельность видного политического и дипломатического деятеля Азербайджанской Демократической Республики (1918–1920) Алимардан-бека Топчибашева, а также исследуется применение его научных идей в практической дипломатии. Обладая глубокими юридическими знаниями и научным мировоззрением, он сумел объединить их с дипломатической практикой, сыграв ключевую роль в международной защите национальных интересов. Юридическое образование и публицистическая деятельность Топчибашева свидетельствуют о ведущей роли правового мышления в формировании его дипломатических стратегий. Основной целью исследования является анализ влияния его правовых знаний на принятие дипломатических решений и на роль в международном представительстве. Его деятельность на Парижской мирной конференции, а также аргументация идеи тюрко-исламского единства с позиций международного права доказывают, что Топчибашев сформировал дипломатическую модель, основанную на правовой и научной базе. В статье также оценивается значение его научного, публицистического и просветительского наследия в контексте современной юриспруденции и дипломатии, научно анализируется его вклад в концепцию тюрко-исламского единства, а также влияние этих идей на азербайджанскую дипломатическую мысль и современные научные подходы. Деятельность Алимардан-бека Топчибашева представляет собой не только историческое явление своего времени, но и ценный теоретический пример для современного государственного строительства и дипломатии.

***Ключевые слова:*** Алимардан-бек Топчибашев, дипломатия, право, Парижская мирная конференция, тюрко-исламское единство, Азербайджанская Демократическая Республика

## Giriş

XX əsrin əvvəlləri Azərbaycan üçün milli oyanış, siyasi təşkilatlanma və dövlət quruculuğu baxımından mühüm tarixi mərhələ olmuşdur. Çar Rusiyasının sərt milli və dini siyasəti nəticəsində Cənubi Qafqaz müsəlmanları, o cümlədən azərbaycanlılar hüquqi, mədəni və siyasi hüquqlar baxımından ciddi məhdudiyyətlərlə qarşılaşırdı. Belə bir şəraitdə formalaşan ictimai-siyasi elita maarifçilik və hüquqa əsaslanan fəaliyyətləri ilə milli şüurun yüksəlməsinə və dövlətçilik ideyasının təşəkkülündə mühüm rol oynamışdır.

Bu tarixi prosesin önündə gedən şəxsiyyətlərdən biri də Əlimərdan bəy Topçubaşov (1862/64–1934) olmuşdur. O, hüquqi bilik və elmi düşüncəni diplomatik fəaliyyətlə sintez edərək Azərbaycanın milli maraqlarını beynəlxalq platformalarda müdafiə etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin tanınması istiqamətində mühüm diplomatik missiyalar həyata keçirmiş,

xüsusilə Paris Sülh Konfransında ölkəsini təmsil etməklə bu sahədə önəmli iz qoymuşdur. Topçubaşovun fəaliyyəti təkcə bir diplomatın fəaliyyəti deyil, həm də Türk-İslam birliyi ideyasını hüquqi-siyasi kontekstdə ifadə edən intellektual missiya kimi dəyərləndirilə bilər. Onun bu ideyanı diplomatik müstəviyə daşımaq bacarığı elmi hazırlığı ilə siyasi mövqeyini birləşdirərək milli-mədəni dəyərləri beynəlxalq aləmdə müdafiə etməsi ilə müşahidə olunur. Bu baxımdan, Əlimərdan bəy Topçubaşovun diplomatik və elmi fəaliyyətinin qarşılıqlı əlaqəsi, hüquqi təfəkkürünün diplomatik təcrübəsinə necə təsir göstərdiyi, eləcə də Türk-İslam birliyi ideyasının beynəlxalq münasibətlər müstəvisində təbliği və qorunmasında onun rolunun elmi əsaslarla təhlili xüsusi aktuallıq kəsb edir.

**Əlimərdan bəy Topçubaşov: həyatı, fəaliyyəti və ictimai əhəmiyyəti**

Azərbaycan aydınlanma hərəkatının ən böyük liderlərindən biri, Peterburq Universitetinin Şərqşünaslıq bölümü professoru Mirzə Cəfər Topçubaşovun nəvəsi Əlimərdan bəy Topçubaşov (1862–1934) XIX əsrin sonu – XX əsrin əvvəllərində fəaliyyət göstərmiş görkəmli hüquqşünas, publisist, diplomat və ictimai-siyasi xadimdir. Tiflisdə zadəgan ailəsində dünyaya göz açan Əlimərdan bəy (ulu babasının adını daşıyan Əlimərdan bəy 1922-ci ildə soyadından "ov" sonluğunu atıb ailə ənənəsinə uyğun "Topçibaşi" adlandırılmasını istəmişdi, amma nədənsə elmi ədəbiyyatda yenə də Topçubaşov variantından istifadə edilir) (*10, s. 9-10*) **həmin dövrdə Rusiya imperiyasının ən nüfuzlu ali təhsil ocaqlarından biri hesab edilən Sankt-Peterburq İmperator Universitetində hüquq təhsili almış, burada oxuduğu illərdə sonralar Azərbaycan ictimai fikir tarixində mühüm rol oynayan Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə ilə tanış olmuşdur.** Bu tanışlıq sonralar Azərbaycan milli-mədəni hərəkatının əsas sütunlarından biri olan 1905-ci ildə təsis edilən "Həyat" qəzetinin yaradılması (1, s. 107) və Cənubi Qafqaz müsəlmanlarının milli-mədəni və siyasi hüquqlarını müdafiə etmək məqsədilə "Ümumusiya müsəlmanları ittifaqı"nın ("İttifaqül-müslim") formalaşması prosesində onların sıx əməkdaşlığı ilə nəticələnmişdir (5, s. 37). Bu baxımdan, Topçubaşov Rusiya imperiyası çərçivəsində azsaylı müsəlman ziyalılarından biri kimi tanınmışdır. Hüquq sahəsindəki geniş bilikləri və prinsipial mövqeyi ilə Rusiya imperiyasında müsəlmanların hüquqlarının qorunmasında, ictimai bərabərlik uğrunda mübarizədə fəal rol oynamışdır. Ümumiyyətlə, Topçubaşovun əsas amallarından biri məzhəbiliyə son qoymaq anlamında islam birliyinə nail olmaq idi. Hər halda, Çar Rusiyasının müsəlman xalqlara qarşı yanlış və qəddar siyasət

yürütdüyünü bildirən Ə.Topçubaşov çar Rusiyasının əsarəti altında olan Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin məzhəbçiliyi aradan qaldırıb dini birliyə, eyni zamanda milli-mədəni muxtariyyət, hüquq və azadlıqlar əldə etməsinə səy göstərmişdir (4, s. 403-404). Bu kontekstdə Əlimərdan bəy Topçubaşov milli məsələni təkcə etnik və ya dini çərçivədə deyil, daha geniş və realist siyasi baxışla dəyərləndirmişdir. O, bir tərəfdən məzhəb ayrı-seçkiliyinin aradan qaldırılması baxımından "İslam birliyi"**,** digər tərəfdən isə türk xalqları arasında həmrəyliyin möhkəmləndirilməsi məqsədilə **"türk birliyi"** ideyalarını dəstəkləmişdir. Bununla yanaşı, Topçubaşov nisbətən liberal-demokratik dəyərlərə əsaslanan siyasi mövqeyi ilə bütün Rusiya müsəlman-türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin vahid ideya və hüquqi çərçivədə birləşməsinə çalışmışdır. Bu yanaşma həmin dövr üçün milli məsələyə daha gerçəkçi və mərhələli yanaşma tərzi kimi səciyyələndirilə bilər.

1905-ci ilin yazı və yayında, ölkədə inqilabi mübarizənin gücləndiyi bir dövrdə milli burjuaziya və ziyalılar burjua-liberal hərəkatının sülhpərvər, leqal üsullarından – kollektiv müraciətlərin verilməsi, çar üsul-idarəsi nümayəndələrilə görüşlərdən istifadə edirdilər. Martın 15-də H.Z.Tağıyevin sarayında burjuaziya və ziyalıların nümayəndələrinin iştirakı ilə keçirilən Müşavirədə Qafqazda islahatların keçirilməsi zərurəti müzakirə edildi. Müsəlmanlara qoyulan qadağaların göstərildiyi kollektiv müraciət tərtib edildi. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi və Fərrux bəy Vəzirovla Əhməd bəy Ağayevin iştirakı ilə tərtib olunan bu müraciət çar hökumətinə Azərbaycan tərəfindən verilən ilk proqram sənəd idi. Bu, sadəcə, tələblərdən ibarət olmayıb "Ümumi milli haqq istəyi" şəklində əsaslandırılmış memorandum mahiyyətində yazılmışdı (6, s. 340). Kəndlilərin torpaqla təmin edilməsi, Qafqaza rus kəndlilərinin köçünün qarşısının alınması və təhkimçilik qalıqlarının ləğvi kimi sosial-iqtisadi tələblər irəli sürülmüşdü. Bu isə yalnız hüquqi islahatlar deyildi, həm də milli oyanış, azərbaycançılıq və müstəqillik ideyalarının ilkin təşəkkül dövrü idi.

Beləliklə, Quzey Azərbaycan türkləri arasında **milli-mədəni muxtariyyət** ideyasını ilk irəli sürən şəxs kimi Topçubaşov sonradan bu ideyanı **milli azərbaycançılıq** konsepsiyası ilə əvəz etmiş və bu istiqamətdə ardıcıl siyasi mövqe sərgiləmişdir (4, s. 412). Mühacirətdə yaşadığı dövrdə də Topçubaşov **Azərbaycan türklüyü** və **Azərbaycan milli ideyasına** sadiq qalmış, milli azərbaycançılıqla yanaşı, **qafqazçılıq** ideyasını da müdafiə etmiş, bu ideyanı Sovet Rusiyasına qarşı mübarizədə daha geniş regional həmrəyliyə əsaslanan strategiya kimi görmüşdür.

1906-cı ildə I Dövlət Dumasına Bakı quberniyasından deputat seçilən Əlimərdan bəy Topçubaşov imperiya parlamentinə daxil olan ilk azərbaycanlı siyasi xadimlərdən biri kimi, Dumanın Müsəlman fraksiyasının yaradılmasına təşəbbüs göstərmiş və bu fraksiyanın fəaliyyətinə rəhbərlik etmişdir. Onun rəhbərliyi ilə fraksiya müsəlman əhalinin milli-mədəni muxtariyyət, dini azadlıq, ana dilində təhsil və sosial bərabərlik kimi əsas tələblərini qanunvericilik müstəvisində qaldıraraq, parlament səviyyəsində ilk sistemli müsəlman siyasi təmsilçiliyinin əsasını qoymuşdur.

1918–1919-cu illərdə Əlimərdan bəy Topçubaşov İstanbulda Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi olaraq diplomatik fəaliyyəti ərzində **36 rəsmi görüş keçirmiş,** onlardan biri 1919-cu il yanvarın 10-da Osmanlı Sultanı Mehmetlə olmuşdur **(2, s. 404).** Bu görüş Azərbaycan – Türkiyə münasibətlərinin möhkəmlənməsində və beynəlxalq arenada dövlətin tanınmasında mühüm rol oynamışdır.

Əlimərdan bəy Topçubaşovun **diplomatik-siyasi və ideoloji** çərçivədə Bakının 1918-ci il sentyabrında azad olunması hadisələrinə dair fəaliyyətini də qeyd etmək lazımdır. Onun **akademik-məruzəvi, diplomatik yazışma və çıxışları** həmin dövrdə Qafqaz İslam Ordusunun Azərbaycana dəstəklərinin siyasi-ideoloji zəminini yaratmış, bu hərbi əməliyyatların **diplomatik legitimasiyasını** təmin etmişdir. Hələ **avqustun 20-də** Azərbaycan hökuməti Osmanlı imperiyası ilə diplomatik əlaqələrin qurulması məqsədilə diplomatik nümayəndə statusu ilə **bütün səlahiyyətlər** verilməklə **Əlimərdan bəy Topçubaşovu** fövqəladə səlahiyyətli nümayəndə kimi **İstanbula** göndərdi. **Avqustun 23-də** o, **Gəncədən yola düşdü**, bir neçə gün **Tiflisdə** qaldı. Burada Gürcüstan hökuməti nümayəndələri və Osmanlı diplomatlarından **Əbdül Kərim paşa** ilə görüşlər keçirdi. **Sentyabrın 7-də** isə **Batuma** çatdı. Burada **gəmi olmadığı üçün iki həftə gözləməli oldu**. **Batumda** Topçubaşov **Bakının azad edilməsi** və **Almaniya ilə Rusiya arasında Bakı ilə bağlı imzalanmış saziş** barədə xəbərləri eşitdi. **Sentyabrın 16-da** isə **Batum komendantı** onu Bakının azad olunması münasibətilə **rəsmi şəkildə təbrik etdi (3, v. 5).** Əlimərdan bəy Topçubaşov Tələt Paşa ilə keçirilən görüşdə türk əsgərlərinin Bakının azad olunmasında göstərdikləri xidmətlərə görə Azərbaycan hökuməti adından təşəkkürünü bildirmiş, bununla yanaşı, Rusiyanın tarixən müsəlman xalqlar arasında məzhəbçilik siyasəti yürütməsini və bolşeviklərin həmin siyasəti davam etdirərək Bakıda həyata keçirdikləri qanlı hadisələrlə müsəlmanlara qarşı düşmən münasibətlərini açıq şəkildə nümayiş etdirdiklərini qeyd etmişdir. Hərbi nazir Ənvər Paşa ilə apardığı danışıqlarda Azərbaycan ordusu üçün hərbi kadrların

hazırlanması, silah və sursatla təminat məsələləri, xalq maarifi nazirinin müavini ilə keçirilən görüşdə isə azərbaycanlı gənclərin Türkiyədə ali təhsil alması imkanları müzakirə olunmuşdur.

1919-cu ildə Azərbaycan hökuməti Əlimərdan bəyi Paris Sülh Konfransında nümayəndə heyətinin rəhbəri təyin etməklə ölkənin beynəlxalq hüquq subyekti kimi tanınması məqsədilə diplomatik missiya ilə Avropaya göndərmişdi. Bu konfrans Birinci Dünya müharibəsindən sonra yeni beynəlxalq nizamın müəyyənləşdirildiyi və yeni yaranan dövlətlərin statusunun müzakirə edildiyi mühüm siyasi platforma idi. Topçubaşov bu görüşlərdə Azərbaycanın suverenliyi və beynəlxalq hüquq prinsiplərinə əsaslanan mövqeyini tutarlı arqumentlərlə müdafiə etmiş, Azərbaycan məsələsinin regionda sülh və sabitlik üçün əhəmiyyətini önə çəkmişdir. Onun hüquqi əsaslara söykənən strategiyası nəticəsində 1920-ci ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyəti Antanta dövlətləri tərəfindən de-fakto tanınmışdır (9, s. 17-18 ).

Publisistik fəaliyyəti — xüsusilə "Kaspi" qəzetindəki redaktorluğu dövründə hüquq bərabərliyi, milli azlıqların hüquqları, təhsil və mədəni inkişafa dair yazıları cəmiyyətin demokratik düşüncəsini gücləndirmiş və ictimai şüurun formalaşmasına böyük təsir göstərmişdir. Peşəkar hüquqşünas kimi tanınan baş redaktorun milli mədəniyyətin və ictimai şüurun başlıca təzahür formalarından biri olan ədəbiyyat məsələlərinə xüsusi önəm verməsi ilk baxışda qəribə görünə bilərdi. Lakin Ə.Topçubaşovun bioqrafiyası ilə tanışlıq bu qəribəlik, gözlənilməzlik amilini dərhal aradan qaldırmağa imkan verir. 1884-cü ildə Birinci Tiflis Gimnaziyasını yüksək nəticələrlə başa vuran azərbaycanlı gənc gimnaziya şurasının təqdimatı ilə Peterburq Universitetinin Tarix-filologiya fakültəsinə daxil olmuşdu. Onun gələcəyin rus ədəbiyyatı mütəxəssisi kimi yetişməsi məqsədilə Qafqaz canişinliyinin xüsusi təqaüdü təsis edilmişdi. Lakin slavyan dilləri və ədəbiyyatı ixtisası ilə xalqına o qədər də böyük fayda gətirə bilməyəcəyini anlayan gənc Topçubaşov tarix-filologiya fakültəsindəki birsemestrlik təhsildən sonra qəti qərarını vermişdi. Onu şirnikləndirərək slavistə çevirmək istəyən təqaüddən imtina etmişdi. Hüquq fakültəsinin tələbələri sırasına keçmiş və buranı parlaq nəticə – namizədlik diplomu ilə bitirərək Vətənə dönmüşdü. 1885-ci ildə Peterburqda verilən bu qərar aradan 2 il keçəndən sonra onu Rusiya müsəlmanlarının və türklərinin şəksiz liderinə çevirmişdi (8, s. 10-11).

Əlimərdan bəy Topçubaşovun ictimai əhəmiyyəti təkcə onun dövrü ilə məhdudlaşmır. Onun irsi bu gün də Azərbaycanın dövlətçilik ənənələrinin, hüquqi düşüncə tərzinin və milli özünüdərk ideyasının əsas sütunlarından biri kimi dəyərləndirilir. O, şəxsiyyəti ilə milli ziyalı idealını, fəaliyyəti ilə isə xalqına xidmət nümunəsini təcəssüm etdirən nadir simalardandır. Topçubaşovun həyat yolu Azərbaycan xalqının siyasi oyanış tarixində, müasir hüquqi və diplomatik düşüncə tərzinin formalaşmasında önəmli yer tutur və gələcək nəsillər üçün örnək olaraq qalır.

**Elmi-hüquqi düşüncənin diplomatiyaya təsiri**

Tarix boyu diplomatiya millətlərin beynəlxalq arenada maraqlarının müdafiəsində, dövlətçiliklərinin möhkəmləndirilməsində və milli təhlükəsizliyin təminində əsas vasitələrdən biri kimi çıxış etmişdir. Xarici siyasətin mühüm tərkib hissəsi olan diplomatiya xüsusilə xalqın müstəqilliyinin bərpası, ərazi bütövlüyünün qorunması və beynəlxalq ictimaiyyətin bərabərhüquqlu üzvü kimi tanınması proseslərində həyati əhəmiyyət daşıyır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə diplomatiya dövlətin müstəqilliyini qorumaq və beynəlxalq arenada tanınmasını təmin etmək üçün əsas fəaliyyət sahələrindən biri olmuşdur. 1918-ci ildə elan olunan istiqlaliyyətin beynəlxalq legitimliyə çevrilməsi həmin dövrün mürəkkəb geosiyasi reallıqları fonunda olduqca çətin və çoxşaxəli diplomatik səylər tələb edirdi. Cümhuriyyətin qurucuları öz fəaliyyətlərini milli maraqlara əsaslanan, eyni zamanda çağdaş dünyəvi və demokratik dəyərlərlə uzlaşdıran bir siyasi kurs üzərində qurmağa nail oldular. Onlar Azərbaycanın beynəlxalq ictimaiyyətdə tanınması və dünya xəritəsində layiqli yer tutması uğrunda ciddi diplomatik mübarizə apardılar. Bu mübarizədə hüquq elminin nəzəri əsasları və beynəlxalq hüququn prinsipləri xüsusi rol oynadı.

Əlimərdan bəy Topçubaşov həmin tarixi mərhələdə Azərbaycanı beynəlxalq miqyasda təmsil edən, diplomatiya və hüquq sahələrini bir-birinə ustalıqla inteqrasiya edən aparıcı şəxsiyyətlərdən biri idi. Onun diplomatik fəaliyyəti yalnız Azərbaycan Xalq Cümhuriyyətinin maraqlarını müdafiə etməklə kifayətlənmədi, eyni zamanda Azərbaycan xalqının dünyaya inteqrasiya olunmuş, hüquqi düşüncəyə əsaslanan dövlətçilik təfəkkürünü də təcəssüm etdirdi.

Əlimərdan bəy Topçubaşovun diplomatik fəaliyyətində **elmi yanaşma** təkcə ümumi bilik səviyyəsi ilə deyil, onun **məntiqi düşüncə**, **faktoloji əsaslandırma**, **beynəlxalq hüquqa istinad** və **analitik arqumentasiya** ilə zəngin diplomatik çıxışlarında və yazışmalarında da özünü bariz

şəkildə göstərir. Paris Sülh Konfransında hazırladığı **hesabatlar** və **məktublar** məntiqi konstruksiyası və hüquqi əsaslandırmaları ilə seçilirdi. Bu sənədlərdə o, Azərbaycanın müstəqilliyini əsaslandırarkən təkcə tarixi hüquqa deyil, həm də **xalqın iradəsi**, **millətlərin öz müqəddəratını təyinetmə hüququ** və **müqayisəli siyasi vəziyyət** kimi beynəlxalq hüquq prinsiplərinə istinad edirdi. Təqdim etdiyi hesabatlarda vurğulanırdı ki, Azərbaycan xalqı çoxmillətli və tolerant bir cəmiyyət formalaşdırmış, ölkə regionda sabitliyin təmin olunmasında strateji əhəmiyyətə malik əsas aktor rolunu oynayır, **qonşu xalqlarla münasibətlərin beynəlxalq hüquq normaları əsasında tənzimləndiyini isə xüsusi qeyd edirdi.** Bu məlumatlar **təkcə faktlarla deyil**, həm də **məntiqi silsilə ilə qurulmuş təhlillərlə** beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılırdı. Əlimərdan bəyin sənədləri elə tərtib olunurdu ki, hər bir diplomatik müstəvidə **qarşı tərəfə təsir edə biləcək hüquqi və siyasi arqumentlər** aydın və əsaslı şəkildə təqdim edilirdi. Onun əsərlərində **elmi arqumentasiya**, əyani **dəlillər**, **tarixi sənədlərə istinadlar** və beynəlxalq hüquq normaları ön planda olurdu. Kommunikasiya çətinliklərinə və diplomatik poçtun qeyri-ardıcıl işinə baxmayaraq o, 1919-cu ilin mart-noyabr ayları ərzində öz ölkəsinin Nazirlər Şurasına 11 əhatəli hesabat göndərmişdi (7, s. 9-15).

Əlimərdan bəyin müasir hüquqi düşüncəyə əsaslanan siyasi baxışları onun 1906-cı il avqustun 16–21-də Nijni-Novqorod şəhərində keçirilmiş III Ümumrusiya Müsəlman Qurultayındakı fəaliyyətində aydın şəkildə təzahür etmişdir. Rəsmi icazə olmadan baş tutan bu qurultaya sədrlik edən Topçubaşov tədbirin hüquqi-siyasi çərçivədə keçirilməsinə nail olmuşdur. Qurultayda onun hazırladığı “İttifaq” partiyasının nizamnamə və proqramı yenidən nəzərdən keçirilmiş, həmçinin türki-müsəlman gənclərinin digər millətlərin nümayəndələri ilə bərabər təhsil hüquqları məsələsi gündəmə gətirilmiş və qəbul olunmuşdur. Həmçinin müsəlman qadınlarının seçki hüququ və məzhəblərarası əməkdaşlıqla bağlı qərarların qəbul edilməsi Topçubaşovun hüquqi modernizmə və cəmiyyətin demokratikləşdirilməsinə yönəlmiş elmi-siyasi mövqeyini ortaya qoyurdu.

Ə. Topçubaşovun diplomatik fəaliyyətində elmi yanaşmanın ən parlaq nümunələrindən biri ABŞ prezidenti **Vudro Vilson** ilə baş tutan görüşdür. Bu görüş 1919-cu ilin sonunda Paris Sülh Konfransı çərçivəsində həyata keçirilmiş və Azərbaycan nümayəndə heyətinin ABŞ-ın Cənubi Qafqaz siyasətinə təsir imkanları baxımından xüsusi əhəmiyyət daşıyırdı. Görüş zamanı Əlimərdan bəy Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini **Vudro Vilsonun məşhur “14 bəndlik proqramı”** çərçivəsində – xüsusilə **millətlərin öz müqəddəratını təyinetmə hüququ**

prinsipinə əsaslanaraq əsaslandırmışdır. Əlimərdan bəy tarixi və hüquqi faktlarla yanaşı, siyasi şəraitin real analizini də təqdim etmişdi. O, Qafqazın geostrateji əhəmiyyətini, regionda sabitliyin yalnız Azərbaycanın beynəlxalq tanınması ilə mümkün ola biləcəyini və ABŞ-ın bu prosesdə oynaya biləcəyi müsbət rolu vurğulamışdı (11, s. 180). Bu, analitik təfəkkürə və hüquqi əsaslandırmaya söykənən yüksək səviyyəli diplomatik çıxış idi. Əlimərdan bəyin bu görüşdə sərgilədiyi yanaşma onu göstərir ki, o, hüquqşünas kimi qazandığı elmi bilikləri yalnız nəzəri deyil, real diplomatik vəziyyətlərdə tətbiq etməyi bacaran bir diplomat idi. Bu görüşdən sonra Azərbaycan məsələsi ABŞ Senatında və konfransın digər komissiyalarında daha ciddi şəkildə müzakirə olunmağa başlamışdı ki, bu da onun təqdimat bacarığının təsirini sübut edir.

**Əlimərdan bəy Topçubaşovun publisistik irsi və diplomatik təbliğatı**

Əlimərdan bəy Topçubaşovun publisistik irsi və diplomatik təbliğatı onun çoxşaxəli ictimai-siyasi fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. O, təkcə hüquqşünas və diplomat kimi deyil, həm də maarifçi-publisist kimi cəmiyyətin hüquqi və siyasi şüurunun formalaşmasında əhəmiyyətli rol oynamışdır. Topçubaşovun publisistik fəaliyyəti milli ideyaların yayılması, siyasi maarifləndirmə və azərbaycanlıların ictimai-siyasi hüquqlarının müdafiəsi ilə sıx bağlı idi. O, “Kaspi”, “Tərəqqi”, “Həyat” və digər dövrünün aparıcı mətbuat orqanlarında məqalələrlə çıxış edərək, hüquq mədəniyyətinin təbliğinə və müsəlman əhalinin hüquqi maarifləndirilməsinə xidmət etmişdir.

Xüsusilə Paris Sülh Konfransı (1919–1920) dövründə onun imzası ilə yayımlanan bəyanatlar, memorandumlardan ibarət sənədlər və çıxışlar beynəlxalq auditoriyaya ünvanlanmış diplomatik təbliğat nümunələri idi. Bu sənədlərdə o, Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi əsaslarla tanınmasını tələb edir, imperiya mirasına qarşı milli müstəqillik ideyasını beynəlxalq hüquq normaları ilə əsaslandırırdı. Topçubaşov bu sahədə hüquqi biliklərini publisistik üslubla birləşdirərək, diplomatik arqumentlərini həm elmi, həm də ictimai təsir baxımından gücləndirirdi. Onun publisistik və diplomatik təbliğatı yalnız məlumat ötürmək məqsədi daşımırdı, eyni zamanda ideoloji bir funksiyanı yerinə yetirir, Azərbaycan dövlətçiliyinin legitimliyini və türk-islam dünyasının beynəlxalq hüquqda yer alması ideyasını əsaslandırırdı. Beləliklə, Əlimərdan bəy Topçubaşovun publisistik irsi onun diplomatik fəaliyyətini tamamlayan, strateji düşüncə ilə yönləndirilən və milli idealları beynəlxalq müstəvidə təqdim edən mühüm bir alətə çevrilmişdir.

Topçubaşov maarifçilik ideyasını da publisistikasının əsas xəttinə çevirmişdir. O, milli məktəblərin inkişafı, təhsildə ana dilinin tətbiqi, müəllim hazırlığı və dünyəvi təhsil modelinin qurulması kimi məsələlərə xüsusi diqqət yetirmişdir. Təhsil və hüququ bir-birindən ayrılmaz hesab edən Topçubaşov bu sahələrdə həm nəzəri, həm də praktiki təkliflər irəli sürmüşdür. Onun yazılarında üçüncü önəmli istiqamət milli özünüdərk, mədəni irsin qorunması və tolerantlıq ideyalarının təşviqidir. Bu uzaqgörən siyasətçi müxtəlif xalqlar arasında anlaşma və qarşılıqlı hörmətin vacibliyini vurğulayaraq həm milli, həm də ümumbəşəri dəyərlərə əsaslanan ziyalı modelini təmsil etmişdir.

Ə.Topçubaşovun Paris Sülh Konfransı dövründə hazırladığı "Paris məktubları" diplomatik publisistika nümunəsi kimi xüsusi əhəmiyyət daşıyır. Bu məktublarda o, Azərbaycanın geosiyasi və etnik reallıqlarını, dövlət quruculuğu sahəsində atılan addımları hüquqi əsaslarla izah etmiş, beynəlxalq ictimaiyyəti erməni və bolşevik təbliğatına qarşı məlumatlandırmağa çalışmışdır. Məktublar rus, ingilis və türk dillərində çap olunaraq müxtəlif siyasi və ictimai dairələrə ünvanlanmışdır. Bu, onun geniş diplomatik vizyonunu və ünvanlandığı auditoriyanın müxtəlifliyini əks etdirir. Rus dilində hazırlanan sənədlər, əsasən, keçmiş imperiya dairələrinə və rusdilli ictimaiyyətə yönəlmişdisə, ingiliscə nəşrlər Qərb diplomatik dairələri və müttəfiq dövlətlər üçün hazırlanırdı. Türk dilində olan materiallar isə Osmanlı və türkdilli ictimaiyyətə Azərbaycanın vəziyyətini çatdırmaq məqsədi daşıyırdı.

1919-cu ildə qələmə aldığı "Azərbaycan Cümhuriyyətinin yaradılması" əsərində isə Topşçubaşov yalnız Azərbaycanın müstəqilliyini əsaslandırmaqla kifayətlənməmiş, eyni zamanda Qafqaz xalqları arasında əməkdaşlıq və birgə gələcək ideyasını ehtiva edən **qafqazçılıq konsepsiyasına** dəstəyini də açıq şəkildə ifadə etmişdir (4, s. 408). O, bu ideyanı region xalqlarının geosiyasi təhdidlərə qarşı ortaq dəyərlər və maraqlar ətrafında birləşməsi üçün real çıxış yolu kimi qiymətləndirmişdir.

Topçubaşovun mətbuatla bağlı fəaliyyətində mühüm addımlardan biri də "Azərbaycan mətbuat bürosu"nun yaradılması olmuşdur. Bu qurum vasitəsilə o, Azərbaycanın xarici ölkələrdə tanıdılması və rəsmi mövqeyinin yayılması istiqamətində sistemli fəaliyyət göstərmişdir. Beləliklə, Topçubaşovun publisistik və diplomatik fəaliyyəti bir-birini tamamlayan, hüquqi və intellektual yanaşmalara söykənən və milli təbliğatın əsasını təşkil edən strateji istiqamətlər kimi çıxış etmişdir.

**Mühacirətdə elmi-diplomatik fəaliyyət**

Əlimərdan bəy Topçubaşov təmsilçisi olduğu hökumətin fövqəladə və səlahiyyətli naziri kimi fəaliyyət göstərdiyi Azərbaycan Cümhuriyyəti üçün cavabdehlik yükünü həyatının sonuna qədər çiyinlərində daşımışdı. Aprel işğalından (1920) sonra Parisdə mühacir həyatı yaşamağa məcbur olan Əlimərdan bəy siyasi fəaliyyətini dayandırmamışdır. O, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin verdiyi mandat əsasında 1920-ci ilin noyabrında Millətlər Cəmiyyətinin Cenevrə toplantısında, eləcə də London, Genuya (1920) və Lozanna (1923) toplantılarında iştirak edərək Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsi barədə beynəlxalq ictimaiyyəti məlumatlandırmışdır. Mühacir konfranslarında və publisistik çıxışlarında Azərbaycan tarixinin saxtalaşdırılması və xalqın siyasi iradəsinin inkar olunması cəhdlərinə qarşı sistemli elmi arqumentlər irəli sürmüş, tarixi sənədlər**,** coğrafi-statistik məlumatlar **və** beynəlxalq hüquqa əsaslanan dəlillərlə bu iddialara cavab vermişdir.

Əlimərdan bəy Topçubaşovun elmi-diplomatik yanaşması təkcə beynəlxalq tribunalar qarşısında deyil, həm də mühacirətdə yaşayan azərbaycanlıların təşkilatlanması və milli şüurun qorunması prosesində praktiki addımlar atmışdır. O, Avropadakı azərbaycanlı siyasi mühacirlərlə Türkiyədəki Azərbaycan Milli Mərkəzi arasında yaranmış fikir ayrılıqlarının aradan qaldırılması üçün çalışmış, 1928-ci ildə Parisə gələn M.Ə. Rəsulzadə ilə danışıqlar nəticəsində rəhbərlikdəki parçalanmanı aradan qaldırmağa nail olmuşdur. Topçubaşovun fəaliyyəti mühacirətdə yaşayan azərbaycanlı ziyalıların, tələbələrin və gənclərin milli məsələlər ətrafında bir araya gəlməsinə, ideya baxımından aydın mövqe formalaşdırmasına şərait yaratmışdı. O, təkcə Azərbaycan siyasi elitasının deyil, bütövlükdə Cənubi Qafqaz və türk-islam dünyasının maarifçi və diplomatik irsini daşıyan simalarından biri kimi qəbul olunurdu. Görkəmli dövlət xadiminin son dərəcə mütəvazi həyat keçirdiyi Parisdə vəfatı (5 noyabr, 1934) milli və siyasi mənsubiyyətindən asılı olmayaraq, mühacirət dairələrində ümummilli itki kimi qarşılanmışdı.

**Nəticə**

Azərbaycan Xalq Cümhuriyyəti hər nə qədər tarixi baxımdan qısa ömür sürmüş olsa da, milli dövlətçilik ideyalarının formalaşması və azadlıq düşüncəsinin geniş xalq təbəqələrində kök salması baxımından dərin və davamlı təsirə malik olmuşdur. 1918–1920-ci illərdə həyata keçirilən islahatlar, qəbul olunan qanunvericilik aktları, demokratik idarəçilik prinsiplərinə əsaslanan dövlət quruculuğu prosesi xalqın milli özünüdərkində dönüş yaratmış, müstəqillik ideyasının gələcək nəsillərə ötürülməsi üçün güclü hüquqi və siyasi baza formalaşdırmışdır. Bu təcrübə müasir Azərbaycan Respublikasının hüquqi və mənəvi təməlini təşkil edərək, bu gün də dövlətçilik və demokratik inkişaf yolunda əsas istiqamətverici xətt kimi aktuallığını qorumaqdadır.

Mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan istiqlaliyyətinin ağır yükünü öz çiyinlərində daşıyan Cümhuriyyət qurucularının diplomatik bacarığı nəticəsində Azərbaycan Respublikası ümumdünya tarixi prosesinə daxil ola bilmişdi. Bu mənada Əlimərdan bəy Topçubaşovun fəaliyyəti xüsusilə əhəmiyyətlidir. Onun həm Cümhuriyyətin daxili və xarici siyasətində oynadığı rol, həm də mühacirətdə – 1920–1934-cü illərdə Parisdə yaşadığı müddətdə – milli maraqların beynəlxalq müstəvidə müdafiəsinə yönəlmiş intellektual və diplomatik fəaliyyəti istiqlal tariximizin mühüm mərhələsini təşkil edir. Topçubaşov təkcə siyasi xadim və diplomat kimi deyil, həm də elmi-publisistik fəaliyyəti ilə Azərbaycan tarixinin, coğrafiyasının və hüquqi-siyasi irsinin beynəlxalq elmi ictimaiyyətə çatdırılmasında mühüm rol oynamışdır. Onun Fransada qəzet və jurnallarda dərc olunmuş məqalələri və nəşrləri, Azərbaycanın hüquqi varisliyi və milli kimliyi uğrunda göstərdiyi səylər, bu gün də milli yaddaşımızın və dövlətçilik təfəkkürümüzün formalaşmasında dəyərli töhfə olaraq qiymətləndirilməlidir.

**Ədəbiyyat**

1. Aşırlı, A. (Vəliyev). (2009). Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı: Elm və təhsil
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (2005), 2 cilddə, II c., Bakı: Lider
3. ARDA, f. 894, s.10, iş 34, v.5 // Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli naziri Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədri F.X.Xoyskiyə məktubu. Sentyabr, 1918
4. Ələkbərli, F. (2020). Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX–XX əsrlər). II hissə. Bakı: Elm və təhsil

5. Əmrahov, M. (2009). XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı
6. Qaraqoyunlu, Y. (2014). Azərbaycan ziyalılarının Rusiya müsəlmanlarının birləşməsində oynadığı rol / Tarixi və milli-mənəvi dəyərlər kontekstində Azərbaycan Milli Kimliyi. Bakı: Elm və Təhsil
7. Quliyev, V. (2008). *Azərbaycanın Paris Sülh Konfransında: 1919–1920*. Bakı: Ozan
8. Quliyev, V. (2013). Əlimərdan bəy Topçubaşov – ədəbiyyatşünas // 525-ci qəzet.- 4 may.
9. Topçibaşev, E. (1993). Memorandum. Baku: Azerbaydjan
10. *Topçubaşov, Ə. (*2018). *Xalqımızın müstəqil yaşayacağına inanırdıq.* Bakı: Azərbaycan Dövlət Tərcümə Mərkəzi
11. Həsənli, C. (2009). Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı, "GARISMA"